# Qürurdoğuran yüksəliş, inkişaf və mütərəqqi islahatlar siyasəti

Dövlət müstəqilliyinin dördüncü onilliyinə qədəm qoyan Azərbaycanın bu dövrdə keçdiyi əzəmətli inkişaf yolu bütün parametrləri ilə hər birimizin qürur mənbəyidir. Ulu Öndər Heydər Əliyevin möhkəm dövlətçilik bünövrəsi üzərində yaratdığı respublikamızın möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə bu inkişafdan irəli gələrək tarixinin ən qüdrətli dövrünü yaşaması müasir dövrün ən mühüm siyasi-ictimai hadisəsidir.

Hər birimizin arzusu ilk növbədə respublikamızın yüksəlişi, tərəqqisi, Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yerinin olması, cəmiyyətimizdə bərqərar olmuş sabitliyin daim qorunması, dövlətçiliyimizin, müstəqilliyimizin təməllərinin möhkəm olmasıdır. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu dövlətçilik təliminin və inkişaf strategiyasının əsasında da bu amillər dayanır. Fəxarət hissi ilə qeyd etməliyik ki, cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin prioritetləri məhz bu prinsiplərə söykənir. Bu baxımdan ötən 19 ilin mənzərəsi respublikamızın inkişafına, dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsinə, sosial rifahın yüksəldilməsinə xidmət edən ən möhtəşəm uğurlarla əlamətdardır. 2003-cü ilin oktyabrından etibarən hər ilin yekunu Prezident İlham Əliyevin uğur hesabatının göstəricisidir. Bu hesabatın hər bir səhifəsi dövlətimizin inkişafının, qüdrətlənməsinin təsdiqi olan nailiyyətlərlə zəngindir.

Konkret ayrı-ayrı istiqamətlərə gəldikdə isə qeyd etmək istərdim ki, möhtərəm İlham Əliyevin rəhbərliyi ilə 19 ildə nail olduğumuz iqtisadi və sosial uğurlar olduqca əhatəli və məzmunludur. Hansı ki, bu uğurlar istər iqtisadiyyatın, istər sosial sferanın bütün istiqamətlərini əhatə edir. Bu illərdə iqtisadiyyatımızın 3 dəfə artması, yoxsulluğun və işsizliyin minimum səviyyəyə düşməsi, bir vaxtlar xarici sərmayələri təşviq edən Azərbaycanın bu gün özünün xarici ölkələrə sərmayə yatıran dövlətə və kosmik klubun üzvünə çevrilməsi, Xəzərdən neft və qazın tarixdə ilk dəfə olaraq alternativ marşrutlarla xarici bazarlara çıxarılması Prezident İlham Əliyevin iqtisadi siyasətinin, o cümlədən dövlətimizin başçısının qətiyyətli siyasi xəttinin mühüm göstəriciləridir.

Prezident İlham Əliyev həm də novator, praqmatik, Azərbaycanın inkişafı naminə proseslərə çevik və adekvat münasibət ortaya qoyan dövlət başçısıdır. Hər bir sahənin inkişafı ilə bağlı ayrıca dövlət proqramının təsdiqlənməsi, eləcə də hər bir istiqamətdə davamlı islahatların həyata keçirilməsi İlham Əliyevin dövlət idarəçilik fəaliyyətinin ən mühüm cəhətlərindən biridir. Dövlətimizin başçısı sürətlə dəyişən reallıqlar və müəyyən olunan yeni obyektiv amillər fonunda islahatların davamlı aparılmasını vacib vəzifə kimi müəyyən edib. Sonuncu prezident və parlament seçkilərindən sonra ölkəmizdə başlanan islahatlar da bunu təsdiq edir. Məhz bu islahatlar nəticəsində respublikamızda sosial-iqtisadi proseslər və siyasi münasibətlər yeni mərhələyə qədəm qoyub və bu mütərəqqi proses indi də Prezident İlham Əliyevin rəhbərliyi altında əzmlə davam etdirilir.

Gənclərin potensialından səmərəli istifadə olunması bu gün müasir, müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan biridir. Fəxarət hissi ilə qeyd etməliyik ki, bu, Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Əsas məsələlərdən biri də mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasətinin gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə kreativ gəncliyin formalaşmasına şərait yaratmasıdır. Bu siyasətin nəticəsi kimi Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır. Xüsusilə vurğulamaq istəyirəm ki, dövlətin gənclərə dəstək və diqqəti nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb.

Prezident İlham Əliyevin yürütdüyü mükəmməl xarici siyasət kursu, o cümlədən enerji siyasəti isə qlobal müzakirələrdə Azərbaycanın milli maraqlarını layiqincə təmin etməkdədir. Bu müstəvidə ən mühüm məsələlərdən biri odur ki, Azərbaycan Prezidenti beynəlxalq miqyasda böyük siyasi nüfuza malik dövlət başçıları sırasında dayanır. Bu günlərdə Azərbaycana işgüzar səfər edən Serbiya Prezidenti Aleksandar Vuçiçin İlham Əliyevin barəsində dediyi "Həqiqətən də çox xoşbəxtəm ki, Prezident Əliyevdən bu qədər şey öyrənə bilmişəm" sözləri dövlətimizin başçısının beynəlxalq səviyyədə yüksək ehtiramla qarşılanan siyasi lider olmasının təcəssümüdür.

İki il əvvəl Vətən müharibəsində torpaqlarımızın azad edilməsi isə möhtərəm İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinin ən böyük təsdiqi kimi tariximizə həkk olundu. Cənab İlham Əliyev öz müdrikliyi ilə bu savaşa hazırlaşdı və tarixi məqamda ərazi bütövlüyümüzü bərpa etdi. Bu savaşda qalib olmaq üçün İlham Əliyev Azərbaycanın iqtisadi inkişafını təmin etdi, həyata keçirdiyi hərbi islahatlarla Silahlı Qüvvələrimizin döyüş imkanlarını ən modern səviyyəyə yüksəltdi. Ona görə də bu zəfər İlham Əliyevin inkişaf siyasətinin və mükəmməl hərbi islahatlarının nəticəsi kimi tarixə düşdü. Qürur hissi ilə qeyd etməliyəm ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin mükəmməl ordu quruculuğunun təcəssümü olan Naxçıvan Əlahiddə Ordunun bölmələri Vətən müharibəsində qəhrəmancasına döyüşdülər. Onların şəxsi heyəti öz igidlikləri ilə Vətən müharibəsinin salnaməsinə qəhrəmanlıq səhifələri yazdılar.

Vətən müharibəsinin başa çatmasından cəmi iki ildən bir qədər artıq müddət ötməsinə baxmayaraq, bu gün Azərbaycanın nümayiş etdirdiyi yeni inkişaf nümunələri gedilən yolun düzgünlüyündən xəbər verir. Pandemiyanın hələ tam olaraq aradan qalxmamasına baxmayaraq artıq iqtisadiyyatda müsbət göstəricilərimiz var və bütün bunlar cənab İlham Əliyevin inkişaf kursunun mühüm uğurlarıdır.

Ötən iki ilin ən böyük uğuru isə sözsüz ki, işğaldan azad edilmiş ərazilərimizin bərpasıdır. İki il uzun zaman kəsiyi deyil, lakin İlham Əliyevin qətiyyəti və iradəsi ilə bu dövrdə Qarabağ və Şərqi Zəngəzurda xarüqələr yaradılıb və bu proses sürətlə davam edir.

Hazırda Azərbaycanın enerji siyasəti yeni mərhələyə qədəm qoyur, bu sahədə Avropa ölkələri ilə əməkdaşlıq daha da genişlənir. Bütün bunlar, o cümlədən işğaldan azad olunmuş ərazilərimizin bərpası, onların Azərbaycan iqtisadiyyatına inteqrasiyası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması və sosial-iqtisadi sferada əldə olunan müsbət göstəricilər ondan xəbər verir ki, möhtərəm İlham Əliyevin rəhbərliyi ilə respublikamızı qarşıda yeni uğurlar gözləyir. Bu yolda Prezident İlham Əliyevə uğurlar arzu edirik.

**Cəbi QULİYEV,**
***Naxçıvan Gənclər Fondunun icraçı direktoru***

Azərbaycan.- 2022.- 24 dekabr.- S.12.